# "Həyat, deyəsən, gözəldir"

## Filmin çəkilməsində məqsədlərdən biri də işğalçı erməniləri dünyada ifşa etməkdir



***"Mən "Fəryad" filminin ssenari müəllifi olmuşam. Ceyhun Mirzəyev də onu rejissor kimi çəkib, həm də baş rolda oynayıb. Həmin film Birinci Qarabağ müharibəsi haqqında idi. Hər kəs bu filmi görüb və bilir ki, ağır bir filmdir". Bu sözləri görkəmli kino rejissoru, ssenarist, Xalq artisti Vaqif Mustafayev deyib.***

O bildirib ki, 44 günlük Vətən müharibəsindən sonra "Fəryad" filmi daha da aktual oldu və sosial şəbəkələrdə onun ikinci hissəsinin çəkilməsi barədə təkliflər irəli sürüldü. İnsanlar "Fəryad" filminin davamını görmək istəyirdilər. Soruşurdular ki, nə üçün Vaqif Mustafayev "Fəryad -2" filmini çəkmir? Bu təkliflər artdıqca Mədəniyyət Nazirliyi bizə filmin davamını çəkmək barədə tapşırıq verdi. Mən həmin vaxt "Molla Nəsrəddin" filmi üzərində çalışırdım. Nazirliyin bu təklifindən sonra dərhal ssenari üzərində işləməyə başladım. İndi artıq film üzərində çəkilişlər gedir. Filmlə bağlı biz 8 gün Hadrutda olduq.

Vaqif müəllim deyir ki, ikinci film bizim güclü silahımız və məğlubedilməz ordumuz haqqındadır. "Fəryad-2"də erməni düşüncəsinin çox cılız olduğu da göstərilir. Bu filmə başqa ölkələrdə ermənilərlə dostluq edən insanlar baxsalar, "dost" dedikləri kəsin kim olduğunu anlayacaqlar. Çünki filmin çəkilməsində məqsədlərdən biri də erməniləri dünyada ifşa etməkdir.

"Birinci Qarabağ müharibəsi bizim üçün uğursuz olduğu üçün "Fəryad" filmi kədərli notlarla köklənmişdi. Ancaq ikinci film tamamilə başqa ab-hava üzərində qurulub. Çəkiliş zamanı heç bir çətinliklərlə üzləşmədik, çünki çəkiliş qrupu komanda şəklində işləyirdi və ən əsası da odur ki, dövlətimiz bizə dəstək oldu",- deyə rejissor vurğulayıb.

Rejissor fürsətdən istifadə edərək Müdafiə Nazirliyinə və Müdafiə Sənayesi Nazirliyinə, eyni zamanda filmdə çəkiliş qrupuna köməklik göstərən hər kəsə öz minnətdarlığını bildirib.

Qeyd edək ki, filmin operatoru Orxan Abbasov, rəssamı Quram Navrozaşvili, geyim rəssamı Keti Kalandadze, bəstəkarı Tural Məmmədli, prodüseri isə Fariz Əhmədovdur. Əsas rollarda Hikmət Rəhimov, Sevinc Əliyeva, Nino Qomarteli, Dmitri Samxaradze, Giorgi Celiya və Aftandil Maxaradze çəkiliblər.

Film Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi ilə "Azərbaycanfilm" kinostudiyasında istehsal edilib.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***